# Səyyar qəbullar


Kiçik Pirəli kəndi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah-halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin fevral ayında səyyar qəbullar Kiçik Pirəli və Çuxur Qəbələ kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


Çuxur Qəbələl kəndi.



**"Qəbələ səsi".**
**Fotolar S. Umuyevindir.**

# Qeyri-neft sektorunun inkişafında aqroturizmin əhəmiyyəti və turizm potensialı olan kənd təsərrüfatı modelləri




Gənclərin İnkişaf və Karyera Mərkəzinin Dağlıq-Şirvan regional nümayəndəliyinin Qəbələ bölməsi və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə "Qeyri-neft sektorunun inkişafında aqroturizmin əhəmiyyəti və turizm potensialı olan kənd təsərrüfatı modelləri" mövzusunda seminar keçirilib. Seminar zamanı iştirakçılara aqroturizmin inkişaf perspektivləri, kənd turizminin iqtisadi və sosial əhəmiyyəti, həmçinin turizm potensialına malik kənd təsərrüfatı modelləri barədə ətraflı məlumat verilib. Görüş çərçivəsində mövzu ətrafında müzakirələr aparılıb, gənclərin sualları cavablandırılıb. Tədbirin əsas məqsədi gənclər arasında qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan aqroturizm sahəsinə marağın artırılması və bu istiqamətdə maarifləndirmə işinin gücləndirilməsi olub.

## Xocalı - 34

# Anım tədbiri keçirilib





26 fevral 2026-cı il tarixdə Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, rayonumuzda müvəqqəti məskunlaşmış Xocalı sakinləri və ictimaiyyət nümayəndələri Qəbələ Rayon Şəhidlər Xiyabanı Kompleksini ziyarət edərək məzarların üzərinə gül dəstələri düzmüşlər. Çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə siyasi-hüquqi qiymət verildiyini, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı, o cümlədən Xocalını azad etdiyini və həmin ərazilərdə abadlıq-quruculuq işlərinin aparıldığını vurğulamış, artıq məcburi köçkünlərin, eləcə də Xocalı sakinlərinin öz doğma yurd-yuvalarına köçürüldüyünü qeyd edərək onları bu münasibətlə təbrik etmişdir. Xocalı sakini Kamal Məmmədov çıxış edərək Xocalının azad edilməsindən sonra bu günün başqa əhval-ruhiyyə ilə anıldığını, səbrsizliklə öz doğma yurd-yuvalarına köçəcəkləri günü gözlədiklərini qeyd edərək ölkə rəhbərliyi tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirmişdir. Sonda xatirə şəkli çəkdirilmişdir.






**Fotolar S. Umuyevindir.**